*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* *№18 (1288), 31 mart - 3 aprel*

# Milli Olimpiya Komitəsinin yaranmasından 25 il ötür



Bu il Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) yaradılmasının 25 ili tamam olur. Bu dövr ərzində Azərbaycan idmançıları Olimpiya Oyunlarında dövlətimizin idman şərəfini qoruyaraq, onun şan-şöhrətini yüksəklərə qaldırıblar. Milli Olimpiya Komitəsi beynəlxalq aləmdə böyük nüfuz qazanıb, öz fəaliyyəti və əldə etdiyi nəticələrlə daim fərqlənib. Milli Olimpiya Komitəsi beynəlxalq və qitə Olimpiya təşkilatlarında ölkəmizi təmsil edir, idmançılarımızın Olimpiya oyunlarında iştirakını təmin edir. İndi idmançıların Olimpiya Oyunlarındakı nəticələri, Olimpiya Hərəkatındakı fəal iştirakı ölkənin təkcə idman sahəsindəki gücü kimi qəbul olunmur. Bu göstərici dövlətimizin dünya birliyində yeri, mədəni və iqtisadi inkişafının yüksək səviyyəsi kimi qiymətləndirilir. 1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini bərpa etdi, lakin həmin dövrdə əksər sahələr kimi, idmanımız da başlı-başına buraxılmışdı. Bir çox idman bazaları baxımsızlıq üzündən yararsız vəziyyətə düşmüşdü. Onlardan təyinatı üzrə istifadə edilmirdi, idman avadanlığı və ləvazimatları demək olar ki, dağıldılmışdı. Yüksək idman ustalığına malik və perspektivli idmançılar, bacarıqlı mütəxəssislər, məşqçilər ölkəni tərk etməyə başlamışdılar. İdman bütövlükdə dövlət qayğısından kənarda qalmışdı.

1992-ci ildə Azərbaycanda milli federasiyaların və Milli Olimpiya Komitəsinin yaradılması dövlət suverenliyinin atributlarını yaratmaq tələbi kimi meydana çıxdı. Milli Olimpiya Komitəsi 1992-ci il yanvarın 14-də keçirilən ümumrespublika konfransında təsis edildi, elə həmin ilin mart ayında Ədliyyə Nazirliyində qeydiyyatdan keçdi.

*(ardı 2-ci səhifədə)*

